AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

# AYLIQ İNFORMASİYA BÜLLETENİ

# SENTYABR

## İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİ





2023

İSTEHLAKÇILARLA İŞ DEPARTAMENTİNİN AYLIQ İNFORMASİYA BÜLLETENİ AYLIQ OLARAQ BAŞ VERƏN YENİLİKLƏR BARƏDƏ MƏLUMATLANDIRMA MƏQSƏDİ İLƏ HAZIRLANIB

## Lənkəran şəhərində fəaliyyət göstərən səhmdar cəmiyyətlərinin maarifləndirilməsi istiqamətində görüşün keçirilməsinə dair

Səhmdarların hüquqlarının qorunmasının vacibliyini, habelə bu sahədə qanunvericiliyin səhmdar cəmiyyətlərinin idarəetmə orqanlarına qarşı tələblərinin daha müfəssəl izah olunmasının faydalarını nəzərə alaraq Azərbaycan Respublikasının Mərkəzi Bankının Maliyyə xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi şöbəsinin əməkdaşları tərəfindən Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə 29 sentyabr 2023-cü il tarixində Lənkəran şəhərində fəaliyyət göstərən səhmdar cəmiyyətləri ilə görüş keçirilmişdir.

Təşkil olunan görüşdə tərəfimizdən səhmdar cəmiyyətlərində korporativ idarəetmənin təkmilləşdirilməsi, emitentlərin illik hesabatlarının qanunvericilikdə nəzərdə tutulmuş qaydada tərtib edilməsi, səhmdarların ümumi yığıncaqlarının çağırılması və cəmiyyətlərin fəaliyyətinin qanunvericiliyə uyğun həyata keçirilməsi istiqamətində maarifləndirmə işləri aparılmışdır.

Qeyd edək ki, tərəfimizdən səhmdarların hüquqlarının qorunması məqsədi ilə müxtəlif tədbirlərin keçirilməsi davam etməkdədir.



## Türkiyə Cümhuriyyətinin və Qazaxıstan Respublikasının maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi sahəsində təcrübə öyrənilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi sahəsində müvafiq işlər görür, eyni zamanda istehlakçıların maliyyə savadlılığının artırılması istiqamətində də davamlı olaraq tədbirlər təşkil edir. Bu istiqamətlərdə müxtəlif ölkələrin təcrübəsinin öyrənilməsi qarşıya qoyulmuş əsas məqsədlərdən biridir. Bu səbəbdən, Türkiyə Cümhuriyyəti və Qazaxıstan Respublikasında istehlakçıların və investorların hüquqlarının müdafiəsi təcrübəsinin öyrənilməsi ilə bağlı əməkdaşlar müvafiq ölkələrə ezam olunmuşdur.

Belə ki, əməkdaşlar Türkiyə Cümhuriyyətinin BDDK (Bankacılık Düzenleme ve Denetleme Kurumu) və SEDDK (Sigortacılık ve Özel Emeklilik Düzenleme ve Denetleme Kurumu) qurumlarında, Qazaxıstan Respublikasının Maliyyə Bazarının Tənzimləmə və İnkişafı Agentliyində təcrübə mübadiləsində iştirak etmişlər. Təcrübə mübadiləsi zamanı müvafiq qurumlarda maliyyə xidmətləri istehlakçılarından və investorlardan daxil olan müraciətlərə baxılma qaydası, vətəndaş qəbulunun həyata keçirilməsi təcrübəsi, çağrı mərkəzinin fəaliyyət istiqamətləri, səhmdar cəmiyyətlərində korporativ idarəetmənin təkmilləşdirilməsi, vətəndaş məmnuniyyəti səviyyəsinin artırılması istiqamətində görülən tədbirlərlə bağlı məlumatlar öyrənilmişdir.







# VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ İLƏ BAĞLI STATİSTİK MƏLUMAT

## Daxil olan zənglər




## Yazılı müraciətlər




## Vətəndaşların qəbulu




| Bank | Sığorta | Kapital bazarı | Digər |
|---|---|---|---|

## Whatsapp üzərindən qeydiyyata alınmış müraciətlər haqqında məlumat




- Mərkəzi Bankın rəsmi cavab məktubunun əldə edilməsi ilə bağlı
- Əks Əlaqə
- Nəzarət subyekti ilə əlaqə saxlanılmasında yaranan çətinliklə bağlı
- Digər

## "Rəqəmsal ödənişlər və elektron bankçılıq xidmətləri" kursu istifadəyə verilmişdir

Azərbaycan Respublikası Prezidentinin 26 sentyabr 2018-ci il tarixli 508 saylı Sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın əsas tədbirlərindən biri də şagird, müəllim və tələbələrə rəqəmsal ödəniş xidmətləri haqqında zəruri biliklərin verilməsi olmuşdur. Azərbaycan Respublikası Təhsil Nazirliyinə həvalə edilmiş bu tədbirin icrası çərçivəsində ölkədə ilk dəfə 2020-ci il tarixində **"Rəqəmsal ödənişlər və elektron bankçılıq xidmətləri"** adlı dərslik yazılmışdır.

Bu kurs Mərkəzi Bankın təşəbbüsü və dəstəyi ilə qeyd olunan dərslik əsasında onun müəllifləri tərəfindən hazırlanmış və Virtual Təhsil Platformasında yerləşdirilmişdir.

Kursun hazırlanmasında əsas məqsəd əhalinin rəqəmsal ödənişlərdə maliyyə savadlılığının artırılması, bu sahədə fəaliyyət göstərəcək yeni peşəkar kadrların hazırlanması, habelə bank əməkdaşlarının və tələbələrin rəqəmsal ödənişlər və elektron bankçılıq xidmətləri sahəsində bilik və bacarıqlarının daha da təkmilləşdirilməsidir.



Kursa bu link vasitəsilə daxil ola bilərsiniz:
https://edu.e-cbar.az/course/preview.php?id=137

## Azərbaycanda ilk Sığorta Festivalının bağlanış mərasimi Gəncədə keçirildi



Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə əməkdaşlığı ilə təşkil olunmuş ilk Sığorta Festivalının təntənəli bağlanış mərasimi Gəncə şəhərində baş tutub.

Tədbirdə Azərbaycan Respublikasının Mərkəzi Bankının, Azərbaycan Sığortaçılar Assosiasiyasının, İcbari Sığorta Bürosunun, habelə sığorta şirkətlərinin rəhbərləri, o cümlədən Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov da iştirak ediblər.

Tədbir çərçivəsində Gəncə sakinləri üçün müxtəlif hədiyyəli oyunlar, intellektual yarışlar və sürprizli şoular təşkil olunub. Həmçinin festival zamanı ölkədə həyata keçirilən "Sığorta maarifləndirməsi" layihəsinin tərkib hissəsi olaraq əhaliyə sığorta məhsulları ilə bağlı maarifləndirici məlumatlar verilib.

Festivalın keçirildiyi müddətdə iştirakçılara yerində sığortalanmaq imkanı yaradılmışdı.






## Mərkəzi Bankda ölkənin müxtəlif regionlarından olan şagirdlər üçün "Maliyyə sağlamlığı" adlı yay məktəbi təşkil olunmuşdur

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən həyata keçirilən maliyyə maarifləndirməsi tədbirləri çərçivəsində 4 iyul - 6 sentyabr 2023-cü il tarixlərində "Maliyyə sağlamlığı" adlı növbəti yay məktəbi təşkil olunmuşdur. Proqramda ölkənin Biləsuvar, Gədəbəy, Gəncə, İsmayıllı, Qax, Qəbələ, Naftalan, Naxçıvan, Oğuz, Saatlı, Şirvan, Şəki, Tovuz, Zaqatala bölgələrindən 14-16 yaşlı 30 şagird iştirak etmişdir.

Yay məktəbi məktəblilərin Virtual Təhsil Platformasında (edu.e-cbar.az) "Uşaqlar və pullar", "Bankçılıq və rəqəmsal ödənişlər" və "Sığortaya giriş" kurslarında iştirakları ilə başlamışdı. 24-31 avqust 2023-cü il tarixlərində kursları uğurla başa vuran şagirdlərə "Financial Fitness for life" (2011) kitabı əsasında hazırlanmış Resurslar, Rasional qərarların verilməsi, İqtisadi düşüncə tərzi, Təhsil nə üçün vacibdir?, Karyera seçimi, Məhsuldarlıq, Vergilər, Cari hesab, Borclar, Səhmlər və qarşılıqlı fondlar, Yığım planlarının və investisiyaların növləri, Nağd və ya kredit?, Nağd pulun idarə edilməsi, Qənaət mövzularında virtual seminarlar təqdim edilmişdir.

Tədbirin son iki günü 5-6 sentyabr tarixlərində Bakı şəhərində keçirilmişdir.

Uşaqlar şəhərin tarixi yerlərində və muzeylərdə olmuş, Mərkəzi Bankda uğurlu karyera qurmuş insanların tövsiyələrini dinləmişdilər.



Yay məktəbinin sonunda iştirakçılara təşviqedici materiallar və sertifikatlar təqdim olunmuşdur.

## Mediasiya Şurası üçün Maliyyə savadlılığı seminarları keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi istiqamətində işlər görür, eyni zamanda onların maliyyə savadlılığının artırılması üçün tədbirlər təşkil edir.

Bu tədbirlərin davamı olaraq 08.09.2023-cü, 14.09.2023-cü, 22.09.2023-cü, 29.09.2023-cü il tarixlərində Mediasiya Şurasının mediatorlarına aşağıda qeyd olunmuş mövzular üzrə seminar keçirilmişdir:

- Mərkəzi Bankın maliyyə savadlılığının artırılması məqsədilə hazırlanmış elektron resursları (infobank.az, edu.e-cbar.az, bizimpullar.az)
- Milli pul nişanları və onların saxtalaşdırılmasına qarşı mübarizə
- Rəqəmsal ödənişlərdən istifadənin üstünlükləri
- İstehlak kreditlərinin xüsusiyyətləri
- Vətəndaşlar üçün sığorta

Seminarlar zamanı regionlarda fəaliyyət göstərən mediatorlara da onlayn platformada mövzuları dinləmək imkanı yaradılmışdır. İştirakçıların mövzular ətrafında verdikləri suallar cavablandırılmışdır.

Mediasiya Şurası üçün nəzərdə tutulan silsilə seminarlar proqram əsasında davam etdiriləcəkdir.





## "Sığortanın əsasları" kitabı Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur




Azərbaycan Respublikasının Mərkəzi Bankı, Azərbaycan Sığortaçılar Assosiasiyası və İcbari Sığorta Bürosunun birgə həyata keçirdiyi "Sığorta savadlılığının artırılması, maarifləndirmə təbliğat və qarşısıalınma tədbirlərinin həyata keçirilməsi" layihəsi çərçivəsində Tena B. Kryusun "Sığortanın əsasları" kitabı Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur.

"Sığortanın əsasları" kitabının nəşrinin məqsədi sığorta sahəsində Azərbaycan dilində akademik ədəbiyyat boşluğunun qismən aradan qaldırılması, o cümlədən akademik təhsilin asanlaşdırılmasıdır.

## Bakı KOB İnkişaf Mərkəzinin dəstək göstərdiyi sahibkarlara seminar keçirilmişdir

Azərbaycan Respublikasının Mərkəzi Bankı maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi istiqamətində işlər görür, eyni zamanda onların maliyyə savadlılığının artırılması üçün tədbirlər təşkil edir. Bu tədbirlərin davamı olaraq 29 sentyabr 2023-cü il tarixində




Bakı KOB İnkişaf Mərkəzinin dəstək göstərdiyi 11 nəfər sahibkara "Neyromarketinq" mövzusunda onlayn seminar keçirilmişdir. İştirakçıların mövzular ətrafında verdikləri suallar cavablandırılmışdır.

Sahibkarlar və sahibkarlığa başlamaq istəyənlər üçün silsilə seminarların keçirilməsi nəzərdə tutulmuşdur.

# TƏDBİRLƏR üzrə STATİSTİKA




**20** İmtahan

**13** Sertifikat

Təlim, seminar, vebinar **5**

İştirakçı **150**



# ELEKTRON RESURSLAR üzrə STATİSTİKA

## Ziyarətçilər




## Baxışlar




bizimpullar.az | edu.e-cbar.az | infobank.az